***Sentyabrın 15-də ölkəmizin bütün məktəbləri yeni dərs ilinə başlayır. Artıq Bakı şəhərində və regionlarda yeni məktəblər istifadəyə verilib, köhnə məktəblər əsaslı təmir olunub. Məktəblərə yeni dərsiklər çatdırılıb, müasir texnologiyalar gətirilib. Bir sözlə, təhsilin yüksək keyfiyyətini təmin etmək üçün hər cür şərait yardadılıb. Bakı Şəhəri üzrə Təhsil İdarəsində də yeni dərs ilinə ciddi hazırlıq işləri görülüb. İdarənin tabeliyində olan 1 saylı tam orta məktəb 2022-2023-cü tədris ilinə hazırdır. Bunu bizimlə söhbətində mətəbin direktoru Elida Rzayeva dedi.***

# Yeni dərs ili başladı

Direktorun sözlərinə görə, yeni dərs ilinin başlaması məktəb kollektivini səfərbər etmişdir. Bu yaxınlarda BŞTİ-nın sentyabr konfransı keçirildi. Mən də konfransda iştirak edirdim. Konfransda Elm və təhsil naziri Emin Əmrullayev ölkə təhsilinin son vəziyyətinə nəzər saldı. Həm müasir texnologiyaya əsaslanan təhsil infrastrukturunun yaradılması, həm də keyfiyyətli insan kapitalının hazırlanması prosesindən danışdı. Təhsilin ayrı-ayrı səviyyələri üzrə vacib yenilikləri dilə gətirdi.

E.Əmrullayev təhsildə uğurlarla yanaşı, mövcud problemlərdən də danışdı. Xüsusən, təhsilverənlərin sertifikatlaşdırılmasının ilkin nəticələrinə geniş yer ayırdı. Onun sözlərinə görə, sertifikasiyaya dəvət olunanlardan 10944 ibtidai sinif müəlliminin, yəni 98 faizinin iştirak etdiyi prosesin ilk mərhələsində uğur qazanan 8577 nəfər olub və bu rəqəm imtahan verənlərin 78 faizi deməkdir.

BŞTİ-nin müdiri Mehriban Vəliyeva çıxışında buraxılış imtahanlarının nəticələrindən danışdı. O, IX siniflərin buraxılış imtahanlarında riyaziyyat və xarici dildə geriləmənin müşahidə olunduğunu dedi. Növbəti tədris ili üçün təhsil işçiləri qarşısında duran əsas hədəflərdən də söhbət açdı. Təhsilin qarşısında "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyası"nın "Rəqabətli insan kapitalı



və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə"sinə istinad edərək müəyyənləşdirilmiş mühüm strateji məqsədləri dilə gətirdi. Bildirdi ki, yeni dərs ilində də ümumi təhsildə səriştəyə əsaslanan məzmun tətbiq olunacaq, təhsilalanlara rəqəmsal biliklər aşılanacaq.

Elida Rzayeva qeyd etdi ki, bizim məktəbdə Azərbaycan və rus qrupları fəaliyyət göstərir. Bu il hər iki qrup üzrə birinci sinifə 170 uşaq qəbul edilmişdir. Yeni dərs ilində məktəbimizdə 930 şagird təhsil alacaq. Bu il ali məktəblərə 50 şagirdimiz yüksək balla qəbul olunmuşdur.

Çalışacağıq ki, nailiyyətlərimiz daha çox olsun.

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***